*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    30 noyabr 2019-cu il    № 93 (2410)    Qiymәti 30 qəpik


## Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib



*Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib və nitq söyləyib. Ölkə başçısı nitqində universitetin müəllimlərini, tələbələrini və bütün Azərbaycan xalqını Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edərək universitetin bütün kollektivinə yeni uğurlar arzulayıb. Prezident İlham Əliyev nitqində Bakı Dövlət Universitetinin yaranma tarixindən, 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verdiyindən, Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin də Bakı Dövlət Universitetinin məzunu olmasından, Heydər Əliyevin təhsil sahəsinə çox böyük diqqət göstərməsindən, hər il təqribən 800-ə yaxın Azərbaycan gənci Bakıda imtahanlar verməklə Sovet İttifaqının Moskva, Leninqrad və digər böyük şəhərlərindəki aparıcı ali məktəblərinə ezam edilməsindən söz açaraq dedi:*

- Heydər Əliyevin qərarı ilə 1970-ci illərin əvvəllərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. Bu da Ulu Öndərin uzaqgörənliyini göstərir. Çünki o vaxt azərbaycanlılar sovet ordusunda az təmsil olunurdu. Heydər Əliyev çox istəyirdi ki, Azərbaycan hərbçiləri yetişsin. Sanki bilirdi ki, nə vaxtsa Azərbaycan müstəqil dövlət olacaq və bu kadrlar bizə lazım olacaq.

Bir sözlə, təhsilə, bütün başqa sahələrə göstərilən diqqət, onun fədakar əməyi və Azərbaycan xalqının müdrikliyi imkan verdi ki, Heydər Əliyev Azərbaycanın ən ağır günlərində öz xilaskarlıq missiyasını icra etsin. Əgər 1970-ci illərdə onun gördüyü işlər xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmasaydı, - 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı, - Azərbaycan xalqı ona müraciət etməzdi. Məhz o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində ona inam hissini saxlayırdı.

Ölkəmizin müstəqilliyə qədərki dövründə də, müstəqillik dövründə də Heydər Əliyev daim xalqın yanında idi və xalqa xidmət etmək onun başlıca missiyası idi. 20 Yanvar faciəsindən sonra o, səsini ucaltdı, Moskvadakı daimi nümayəndəliyə gəlib, orada mətbuat konfransı keçirib, sovet rəhbərliyini, Kommunist Partiyasının rəhbərliyini ittiham etmişdir, bu qanlı faciəni pisləmişdir və bütün dünyaya bu həqiqəti çatdırmışdır. Çünki onun böyük nüfuzu var idi və onun dilindən səslənən sözlər, həqiqətlər dünyanın bütün yerlərində əks-səda vermişdi. Halbuki o vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağılacaq. O cəsarətli addım Heydər Əliyevin xalqa nə qədər bağlı olduğunu göstərir.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

*Prezident İlham Əliyev noyabrın 26-da Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2020-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2020-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

## "Azərbaycan əsgərinin xofu düşməni daim qorxu içində saxlayır"

*Ermənistan tərəfinin guya Azərbaycan Ordusu bölmələrinin cəbhənin Ağdərə istiqamətində təxribat törətmək cəhdi barədə yaydığı məlumat yalandır, əsası yoxdur və dezinformasiya xarakteri daşıyır.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, görünür son zamanlar cəbhə xəttində mövcud sabit vəziyyət Ermənistanın hərbi-siyasi rəhbərliyini qane etmir və bu cür məlumatları yaymaqla erməni xalqının diqqətini öz ölkəsində mövcud olan problemlərdən yayındırmağa çalışır.

Digər tərəfdən isə, həmişə olduğu kimi, Azərbaycan əsgərinin xofu düşməni daim qorxu içində saxlayır.

AZƏRBAYCAN ORDUSU

# Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib

(Əvvəli 1-ci səhifədə)

Ölkə başçısı nitqinə davam edərək deyib:

- Bu yaxınlarda biz 120 ölkənin qərarı ilə Qoşulmama Hərəkatına sədrlik etməyə başladıq. Mən sizə deyim və Bakıda keçirilmiş Zirvə Görüşü onu bir daha göstərdi, bu ölkələr arasında ixtilaflar kifayət qədər çoxşaxəlidir. Elə ölkələr var ki, bir-biri ilə müharibə şəraitindədir. Elə ölkələr var ki, bir-biri ilə diplomatik əlaqələr saxlamırlar. Amma onların hər biri - 119-u bizə səs verdi.

Prezident Putinin dəvəti ilə mən "Valday" Diskussiya Klubunda iştirak etdim. Oraya cəmi 3 dövlət başçısı dəvət olunmuşdu, o cümlədən Azərbaycan. Bu, bir daha göstərir ki, Rusiya və onun Prezidenti Azərbaycana nə qədər böyük önəm verir və bizə böyük hörmət göstərir. Orada da canlı efirdə sözümü dedim. Mən bunu Bakıda da, hansısa rayonda da deyə bilərdim. Onu kim eşidəcəkdi? Bizimkilər, yəni, biz bunu özümüz üçün demirik, biz deyirik ki, dünya bilsin və orada canlı efirdə mən dedim: "Qarabağ Azərbaycandır, nida işarəsi". Bir daha bütün dünya gördü ki, Qarabağ Azərbaycanındır, bir daha bütün dünya bu həqiqəti gördü.

Ondan sonra MDB Zirvə Görüşündə, - o, "Valday"dan bir neçə gün sonra baş verdi, - mən qeyd etdim ki, biz Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin ərəfəsindəyik. Biz imkan verə bilmərik ki, MDB məkanında faşistlərə abidələr ucaldılsın. Dedim ki, Ermənistanda faşist Qaregin Njdeyə 6 metrlik abidə ucaldılıb, bu, sökülməlidir, bu, qəbuledilməzdir. Dedim ki, o vaxt o, həbs olunmuşdur və həbsxanada da çürümüşdür. Onu da bildirmək istəyirəm ki, həbs edən təşkilatın adı "SMERŞ" idi. Bilməyənlər bilsinlər ki, bu, abreviaturadır, bunun adı "Smert Şpionam", "SmerŞ", yəni, "Casuslara ölüm". Yəni, casus kimi həbs olundu, ona 25 il cəza verildi, faktiki olaraq, ölüm cəzası və o, Vladimir türməsində dünyadan getdi. İndi, görün, Ermənistanın baş nazirinin cavabı nə oldu? Dedi ki, Soljenitsın da lagerdə olub, dissidentlər də türmədə olub. Yəni, bu adam Soljenitsını və söz azadlığına görə həbs edilən və sonra reabilitasiya olunan digər adamları faşist Njde ilə eyniləşdirir. Bu, onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin faşist mahiyyəti dəyişmir. Mən onlara şans verdim. Öz çıxışımda dedim ki, onu əvvəlki hakimiyyət ucaldıb. İndiki hakimiyyət özünü demokratik adlandırırsa, söksün, yıxsın bu abidəni. Bu ləkəni yusun Ermənistan üzündən. Heç olmasa, onlar bir ləkədən canlarını qurtarsınlar. Yox, görün, bunların faşist mahiyyəti hara gedib çıxıb ki, bu, türklərə qarşı vuruşub. Yəni, onlar üçün əsas budur. Onlar uşaqları da belə yetişdirirlər, bizə qarşı, Türkiyəyə qarşı, müsəlmanlara qarşı nifrət ab-havasında.

Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?

Biz dəfələrlə İslam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılan abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasibətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa, o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?!

Ona görə bizim bu istiqamətdə siyasətimiz davam etdiriləcək. Amma məsələ bununla bitmir. Ermənistanın baş naziri Aşqabad Zirvə Görüşündə böyük səhv buraxdı, Soljenitsınla faşisti eyniləşdirdi. Amma heç olmasa, ondan sonra bir nəticə çıxaraydı. Çünki həm mətbuatda, özü də Rusiya mətbuatında, başqa mətbuatda bunu lağa qoydular ki, bu, nə deyir, nə danışır, bu, nədir? Ondan sonra, görün, nə deyir? Rusiya jurnalistləri ilə görüşdə deyir ki, nə olsun ki, Njde Hitlerlə görüşüb, Molotov da Hitlerlə görüşüb. Bax, bilirsiniz, buna daha şərh vermək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri olub, 1939-cu ildə müharibənin mümkünlüyünü aradan qaldırmaq üçün gedibdir, görüşübdür. O, Hitlerə xidmət etmirdi. O, Hitlerə qarşı koalisiyanın başında duran Sovet İttifaqının aparıcı simalarından biri idi. Onu Njde ilə eyniləşdirmək olar?! Mən, eyni zamanda, bu misalları ona görə gətirirəm ki, gənclər yaxşı oxusunlar, gələcəkdə belə gülünc vəziyyətə düşməsinlər, tarixi yaxşı bilsinlər. Amma bunu deyən bu gün o ölkənin rəhbəridir. Yəni, onlardan nə gözləmək olar? Bu sual ritorik sualdır.

Elə bu iki ay ərzində bizim xarici siyasətlə bağlı digər önəmli hadisələr də baş vermişdir. Biz oktyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərimizə götürdük və Zirvə Görüşünü Bakıda keçirdik. Qoşulmama Hərəkatının sədrliyini öz üzərimizə götürmüşük. Üç il ərzində biz bu təşkilata sədrlik edəcəyik. Bu, BMT-dən sonra dünyada ikinci təşkilatdır və əslində, birinci təşkilatdır. Çünki BMT indi elə vəziyyətdədir ki, onu islah etmək istəyənlərin sayı gündən-günə artır, bu, bir. İkincisi, BMT-nin rəhbəri yoxdur. Heç bir ölkə BMT-yə rəhbərlik etmir. Təhlükəsizlik Şurasına da sıra ilə rəhbərlik olunur. Biz də, o cümlədən rəhbərlik etmişik. Bu rəhbərlik müddətlidir. Biz isə dünyanın BMT-dən sonra ən böyük təşkilatının sədriyik və indi bizim sözümüz keçəcəkdir. Gündəliyi biz formalaşdırırıq, məsələləri biz müzakirəyə çıxaracağıq. Əlbəttə ki, öz məsələmizi və əzilmiş, ədalətsizliyə düçar olmuş ölkələrin məsələlərini qaldıracağıq, onları müdafiə edəcəyik.

Ölkə başçısı nitqində müəllim kadrlarının gərəkli fəaliyyətinə də toxunub:

- O ki qaldı daxili məsələlərə, onlar da öz həllini tapır. Azərbaycan iqtisadiyyatı inkişaf edir. Mən gələcəkdə iqtisadi sahədə heç bir problem görmürəm. Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan artıq çoxdur. Xarici borcumuz azalır, yenə də azaldacağıq. Mən göstəriş vermişəm təqribən 10 faizə qədər, indi ümumi daxili məhsulun 17 faizini təşkil edir, 10 faizinə qədər getməlidir. Sənaye artır. Bu il qeyri-neft sənayemiz 15 faiz, kənd təsərrüfatı 7 faiz artıbdır. Davos Ümumdünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır.

İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır. Bu, imkan verir ki, sosial sahəyə böyük diqqət yetirək. Bundan 4 milyon 200 mindən çox insan faydalanıb. Bu il minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz, müavinətlər iki dəfə, tələbələrin təqaüdləri 50 faiz, köçkünlərə verilən təqaüd 50 faiz artırılıb. Nəyin hesabına? Bu, göydən düşən deyil, bunları islahatların hesabına əldə edirik, əldə də etməliyik.

Kadr islahatları gedir, bu da zərurətdir, durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbii yolla, burada da heç bir əyintilərə yol vermək olmaz. Mən bir neçə dəfə bu məsələ ilə bağlı fikirlərimi deyəndən sonra bəziləri başladılar bəzi adamların yaşını hesablamağa ki, bunun 70 yaşı var getməlidir, qətiyyən belə şey ola bilməz. Sonra dedim mən imkan vermərəm ki, kampaniya aparılsın. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə eləməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik. Əlbəttə, kadr islahatları bundan sonra da aparılmalıdır. Ancaq bu, kampaniyaya çevrilməməlidir.

O ki qaldı müəllimlərin fəaliyyətinə, mən onların fəaliyyətini çox yüksək qiymətləndirirəm. Müəllim peşəsi çox şərəfli, məsuliyyətli, çox ağır peşədir. Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Mən deyim ki, biz müasir dövrdə köhnə baqajla yaşaya bilmərik. Ona görə indi internet dövrüdür, hər bir məlumatı əldə etmək üçün imkanlar var. Daim müəllimlər yeniliklərə baxsınlar, onların peşəsində hansı proseslər gedir, dünyada hansı proseslər gedir, texnoloji inkişaf nədən ibarətdir ki, tələbələrə keyfiyyətli biliklər versinlər. Ona görə müəllim peşəsi şərəflidir, hörmətlidir, ancaq, eyni zamanda, müəllimlər də daim öz üzərlərində işləməlidirlər.

Mən də müəllim olmuşam. İnstitutu bitirəndə mən bir xarici ölkəyə təyinat aldım, ancaq ondan imtina etdim, xaricə getmək istəmədim. Qaldım institutda, aspiranturaya daxil oldum, dissertasiya müdafiə etdim və 23 yaşımda dərs verməyə başlamışdım, özü də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda, 23 yaşında, 5 il ərzində. Ona görə müəllim peşəsi mənim üçün yad peşə deyil. Mən də müəllim olmuşam, müəllim kimi sizi salamlayıram.

Ölkə başçısı tələbələrə bilikli olmalarını tövsiyə etdi, biliyin, savadın onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edəcəyini xatırlatdı və qeyd etdi ki, bugünkü gənclərin mütləq əksəriyyəti biliklidir, savadlıdır, vətənə bağlıdır, vətənsevərdir.

Azərbaycan Prezidenti çıxışını dövlətçiliyimizi xarakterizə edən bir kəlamla bitirib: "Bizim müstəqilliyimiz başlıca vəzifəmizdir. Azərbaycan müstəqil dövlətdir, qürurlu dövlətdir və gələcəyə çox nikbin baxan dövlətdir."



*Ön xətdən reportaj*

# “Atamın döyüş yolunu davam etdirəcəm”

Ali Baş Komandan İlham ƏLİYEV:

*Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq.*



Təsadüf elə gətirdi ki, qatarda bir vətənpərvər ədəbiyyat müəllimi ilə yol yoldaşı olduq. Onunla gənc nəslin vətənpərvərlik ruhunda böyüməsindən, tərbiyə olunmasından ürək dolusu danışdıq, xeyli dəyərli qəhrəmanlıq nümunələrindən söz açdıq. Bir sözlə, daim bizi düşündürən Vətəndən, Torpaqdan danışdıq vətəndaş heysiyyətiylə. Maraqlı söhbət ovqatımızı xeyli yüksəltdi. Zabit və əsgərlərin yanına belə gözəl ovqatla gedirəm.



Ön xətdə yerləşən bölmənin həyətində zabit Rafiq Nuruyevlə qısa söhbətdə böyük uğurla başa çatan 2016-cı ilin Aprel döyüşlərini də xatırladıq. O da bu şanlı döyüşlərin iştirakçısı olubmuş. Lələtəpə yüksəkliyinin erməni qəsbkarlarından azad olunması uğrunda vuruşub. Həmin uğurlu döyüşlərdən söz açaraq deyir ki, Aprel zəfəri ordumuzun şərəfli səhifəsidir. “Bu səhifəni qəhrəmanlıqlar yazdı. Qürur duyuram ki, mən də bu döyüşlərin iştirakçısı olmuşam. Zabit və əsgərlərimiz bu əməliyyatlarda cəsarətlə, rəşadətlə vuruşaraq böyük igidlik göstərdilər. Elə bil şəxsi heyət qəhrəmanlıq göstərmək üçün döyüşlərin başlanmasını gözləyirmiş. Ermənilər müqavimət göstərməyə çalışsalar da, bunu bacarmadılar. Aprel döyüşlərindən əvvəl cəmiyyətdə ermənilərin məğlubedilməzliyi haqqında həqiqətdən xeyli uzaq olan boş bir mif dolaşırdı. Ordumuzun bu zəfəri, düşmən üzərindəki qalibiyyəti bu mifi darmadağın etdi. Aprel döyüşləri göstərdi ki, Ermənistan ordusu Azərbaycan Ordusundan dəfələrlə zəifdir. Gündən-günə gücü, qüdrəti artan Azərbaycan Ordusu qısa müddətdə torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Əminəm ki, Ali Baş Komandan əmr verərsə, zabit və əsgərlərimiz daha da böyük hünər və qəhrəmanlıqlar göstərərək Böyük Qələbəni qazanacaqlar.”

Səngərlərə - zabit və əsgərlərin yanına tələsirik.

Maşınımız üzü dağlara tərəf istiqamət götürür. Payızın orta ayı olsa da, havalar o qədər də sərt keçmir. Bələdçimiz baş gizir Niyaməddin Nəsirov yolboyu bizi ötüb keçdiyimiz ərazilərlə tanış edir. Dediklərindən hiss olunur ki, o, bu yerlərin hər daşına-qayasına bələddir. Dərələrdən birinin ətəyindən keçəndə baş gizir ərazidəki dərin qazılmış mövqeləri göstərərək deyir ki, Aprel döyüşlərindən əvvəl mövqelərimiz burada yerləşirdi. “Amma uğurla başa çatan əməliyyatdan sonra xeyli irəliləmişik. Getdiyimiz bu yerlər uzun illər düşmənin tapdağı altında qalmışdı”.

Bələdçimizdən onu da öyrənirik ki, o da Aprel döyüşlərinin iştirakçısıdır. İstehkamçı olan Niyaməddin həmin döyüşlərdə mühüm hərbi tapşırıqları yerinə yetirib. Bu gün də xidmətini uğurla davam etdirən baş gizir "Hələ qarşıda bizi neçə-neçə uğurlu döyüşlər gözləyir", - deyərək söhbəti yekunlaşdırır.

Mövqelərə çatırıq.

Maşından düşüb asta addımlarla mövqelərə qalxırıq. Yüksəklikdə olduğumuza görə ətraf ərazi aydın görünür. Qarşıda könül oxşayan gözəl mənzərələr açılır. Gözəllikləri seyr edə-edə səngərə - əsgərlərin yanına çatırıq. Baş leytenant Elgiz Sabirlinin şux duruşu, iti baxışları, cəld və çevik hərəkətləri qorxmaz və cəsarətli olduğundan xəbər verir. Söhbət zamanı öyrənirəm ki, bu gənc zabit ulu öndər Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Hərbçi kimi kifayət qədər bacarığı və təcrübəsi var. Baş leytenant deyir ki, torpaqlarımızı qorumaq bizim ən müqəddəs borcumudur. “Bu gün biz zabit və əsgərlər doğma torpaqlarımızın müdafiəsində dayanmaqdan böyük şərəf duyuruq. Hər an döyüşə hazırıq. Əsgərlərimizin döyüş hazırlığı, bacarığı və peşəkarlığı yüksək səviyyədədir. Onlar düşməni qısa müddət ərzində məğlub etmək gücündədirlər. Dayandığımız bu mövqelər, bu səngərlər Aprel döyüşlərinə qədər erməni qəsbkarlarının nəzarətində olub. Aprel döyüşləri zamanı ordumuzun bölmələrinin şəxsi heyəti qısa müddətdə erməniləri əkshəmlələrlə geri oturtdular. İndi bu mövqelər bizdədir. Əsgərlərimizin döyüş əzmi, qələbə ruhu yüksək səviyyədə olduğundan onlar bu qələbəni təkrarlamağa hər an hazırdırlar”.



Səngərdə addımladıqca adamın qanı coşur, özünü məğlubedilməz döyüşçü, məğrur, qəhrəman bir əsgər hiss edir. Yəqin ki, səngərlərdə insanı yüksəlişə, zəfərlərə aparan bir güc var. Əsgərlər göz qırpmadan torpaqlarımıza keşik çəkirlər. Baş leytenant Elgiz Sabirli bizi onlarla tanış edir.

Əsgər Kənan Adamov ordu sıralarına ötən il çağırılıb. Gədəbəydə dünyaya göz açıb. "Erməni işğalçıları 1992-1993-cü illərdə rayonumuzun kəndlərinə hücum edəndə, əli silah tutanlar cəbhəyə yollanıb, düşmənlə vuruşub döyüşdülər", - deyə əsgər Kənan Adamov söhbətə başlayır. "Buna görə də ermənilər rayonun ərazisinə ayaq qoya bilmədilər. Güc birlikdədir. Bu gün biz birik, bir yerdəyik, güclüyük, məğlubedilməzik! Düşmən bu gücün, bu qüdrətin qarşısında dayana bilməyəcək. Qarabağın azadlığı uğrunda döyüşlər başlayarsa, qalibiyyət bizim olacaq!"

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ədalət Zəkiyevin atası Heybət Zəkiyev Qarabağ uğrunda döyüşlərdə iştirak edib. Əsgər Ə.Zəkiyev bu barədə iftixarla danışır:

- Atam Tərtər rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib. Mən orta məktəbdə oxuyanda atam Qarabağ müharibəsindən də danışardı. Onun söhbətlərini dinlədikcə düşmənə nifrətim daha da artırdı. Mən də atam kimi əsgər olmaq istəyirdim. Bu düşüncələr də məni səngərlərə gətirib çıxartdı. Atamın döyüş yolunu davam etdirməyə hazıram. Ata-bala ikimiz də müxtəlif illərdə doğma ordumuzun əsgərləri olmuşuq. Mən bundan qürur duyuram. Əvvəllər evdə atam müharibədən, iştirakçısı olduğu döyüşlərdən danışardı. İndi isə mən məzuniyyətə gedəndə evdəkilərə səngər həyatından, xidmətdən söz açıram. Atam mənə diqqətlə qulaq asır və ordumuzun bu cür inkişafı, formalaşması keçmiş döyüşçü kimi onu çox sevindirir.

Əsgərlərdən Məcid Məmmədov, Elçin Seyidov, Sənan Məmmədov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Asəf Quluyevlə və başqaları ilə də söhbət edirik. Onların vətənpərvərliyini, cəsarətini, torpaq sevgisini, bacarıqlarını, hərbi biliklərinin zənginliyini, yüksək peşəkarlığını gördükcə ürəyimiz açılır, qəlbimizi xoş hisslər bürüyür. Bir daha əmin oluruq ki, hərbçilərimiz torpaqlarımızı işğaldan azad etməyə hazırdır, qadirdir.

Əsgərlərimizin söhbətlərindən, əzmkarlıqlarından, cəsarətlərindən, hünərlərindən və dayandıqları səngərlərdən qələbə qoxusu gəlir.

Dayandığım səngərdən kövrək hisslərlə qarşı tərəfə boylanıram. Baxışlarım doğma ocaqlarda ilişib qalır. Hiss edirsən ki, biz o yerlərin həsrətini çəkdiyimiz kimi, o torpaqlar da bizim nəfəsimizə həsrətdir...

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# "Çingiz dastanı"

## adlı iki hissəli mənzum tamaşanın premyerası olub



*Azərbaycan Respublikasının Xalq artistləri Amaliya Pənahovanın və Yusif Muxtarovun birgə yaratdıqları Bakı Bələdiyyə Teatrını xalqımız və Azərbaycan Ordusunun şəxsi heyəti haqlı olaraq "Döyüşən teatr" kimi tanıyır. Bu teatrın 28 il öncə - respublikamız müstəqilliyini bərpa etdiyi ilk günlərdə fəaliyyətə başlaması Azərbaycan mədəniyyəti tarixində mühüm hadisə idi. Teatr bu gün də gənclərdə vətənpərvərlik hissinin, Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə mənəvi dəstək missiyasını uğurla davam etdirir. Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin, dövlətçiliyinin qorunub saxlanmasında, xalqın ölkə rəhbərliyinin ətrafında daha sıx birləşməsində, hərbi qulluqçularda düşmənə qarşı nifrət hissinin aşılanmasında Bakı Bələdiyyə Teatrının müstəsna xidmətləri var.*

Teatrın repertuarının əsasını təşkil edən vətənpərvərlik, cəngavərlik, mübarizlik mövzusunda hazırlanmış tamaşalar hər bir əsgəri qələbələrə, işğal altındakı torpaqlarımızı azad etmək üçün uğurlu döyüş əməliyyatlarına hazır olmağa ruhlandırır. Xalqımız bu ruhun qələbəsini 2016-cı ilin Aprel və 2018-ci ilin May döyüş əməliyyatları zamanı gördü və tarixi yurd yerlərimizə böyük qayıdışın ilk köçünün sevincini yaşadı.

Birinci Qarabağ müharibəsi illərində teatrın yaradıcı kollektivi tez-tez cəbhə bölgələrində döyüşçülərimizin asudə vaxtlarının səmərəli təşkilinə yardımçı olur, mərmilər və güllələr altında nümayiş etdirilən tamaşalarla Vətən əsgərinin döyüş ruhunu və qələbə əzmini daha da artırırlar. Unudulmaz sənət fədailərimizin qızı Aynur Muxtarovanın rəhbərlik etdiyi teatr bu gün də varislik ənənələrini layiqincə davam etdirir.

Bir neçə gün öncə "Nəsimi" tamaşası ilə pərəstişkarlarını sevindirən teatr bu gün "Çingiz dastanı" adlı ikihissəli mənzum tamaşa ilə yeni bir uğura imza atıb.

Tamaşanın Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində keçirilən premyerasında Müdafiə Nazirliyinin rəsmiləri, Milli Məclisin deputatları, qoşun növlərinin, Bakı qarnizonunun hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin, qeyri-hökumət təşkilatlarının nümayəndələri, müharibə veteranları və şəhid ailələrinin üzvləri iştirak ediblər.

Əvvəl şəhidlərin xatirəsi ehtiramla yad edilib. Bildirilib ki, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin eyniadlı mənzum dramı əsasında hazırlanan bu tamaşa Azərbaycanın Milli Qəhrəmanı şəhid Çingiz Qurbanovun 25 illiyinə teatrın töhfəsidir. Cəmi 22 il ömür sürən Çingiz şərəfli ölümü ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni bir səhifə yazdı. O, xalqımızın qəhrəman oğlu, ordumuzun əfsanəyə çevrilmiş giziri Mübariz İbrahimovun qəhrəmanlığını təkrarladı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Çingiz Qurbanovun valideynlərini qəbul edərkən dediyi fikirlər ölkə rəhbərinin Azərbaycan əsgərinə, gəncinə verdiyi ən yüksək qiymətdir: "Əsgər Çingiz Qurbanov doğma torpağını müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur. Çingiz böyük qəhrəmanlıq, igidlik göstərmişdir. Düşmənlə üz-üzə qalaraq qeyri-bərabər döyüşdə bir daha düşmənə göstərdi ki, Azərbaycan əsgəri nəyə qadirdir. O geri çəkilmədi, qorxmadı, baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə gəlmişdi. Son nəfəsinə qədər vuruşmuş, bir neçə işğalçını məhv etmiş, şəhidlik zirvəsinə ucalmışdır. Biz Çingizlə fəxr edirik, bütün Azərbaycan Çingizlə fəxr edir. Bu, bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Bu, bir daha göstərdi ki, Azərbaycan dövlətinin güclü əsgərləri var. O, böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərmişdir. Çingiz ölməyib, o, bizim ürəyimizdə yaşayır, yaşayacaqdır". Bakı Bələdiyyə Teatrının qəhrəmanlıq mövzusuna müraciət etməsi təqdirəlayiqdir və zamanın tələbidir.



Tamaşada Çingiz obrazını istedadlı aktyor İlqar Musayev canlandırıb. Əsas rollarda Əməkdar artistlər Səmayə Sadıxova, Əfqan Soltanov, Aydın Əliyev, Hüsniyyə Mürvətova, Elxan Rza, aktyorlardan İsmayıl Atakişiyev, Asif Rəhimov, Toğrul Rza və Əzizə Həşimova çıxış ediblər. Kütləvi səhnələrdə isə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi iştirak edib.

Tamaşa birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində, eləcə də cəbhəyanı bölgələrdə də nümayiş etdiriləcək.

Bu tamaşa Bələdiyyə teatrının Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin üçüncü əsərinə müraciətidir. "Türk sancağı" pyesi Azərbaycanın bütün bölgələrində, Türkiyənin İğdır, Kars, Ərzurum, Yozqut və Ankara şəhərlərində göstərilib və kifayət qədər rəğbətlə qarşılanıb. "Daş andı" pyesi də "Çingiz dastanı" mənzum dramı teatrın tamaşaçılara vətənpərvərlik hesabatı kim izlənildi. Aktyorlar əsərin məzmununun açılmasında fərdi qabiliyyətlərini sərgiləyə bildi, mizanlar aktyor oyununu tamamladı. Ümumiyyətlə, mənzum dramın mahiyyəti gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasında əhəmiyyətli olacaq...

"Çingiz dastanı"nın premyerasından sonra Milli Məclisin deputatı Aydın Mirzəzadə, ehtiyatda olan polkovnik Şair Ramaldanov, Bakı Bələdiyyə Teatrının baş rejissoru, Xalq artisti Mərahim Fərzəlibəyov və başqaları tamaşanın aktuallığını, aktyorların uğurlu çıxışını və bu əsərin gənc nəslin xalqımızın qəhrəmanlıq ənənələri ruhunda formalaşması istiqamətində mühüm əhəmiyyət kəsb edəcəyinə əminliklərini bildirib, yaradıcı kollektivə minnətdarlıq ediblər.



Tədbirdə bir neçə gün öncə Prezident, Ali Baş Komandan İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə keçirilən mərasimdə dediyi "Gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə olunmalıdır" kəlamları xatırlanıb və bugünkü tamaşanın da məhz bu ideyaya xidmət etdiyi üçün yüksək dəyərləndirilib.

Şəhidin atası Salman Qurbanov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə, Bakı Bələdiyyə Teatrının yaradıcı kollektivinə, bütün iştirakçılara və tamaşaçılara ən yüksək fəxri ada layiq görülən oğlu Çingiz Qurbanovun xatirəsini əziz tutduqlarına, göstərilən diqqət və qayğıya görə ailə üzvləri adından minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

Milli qəhrəmanlarımız

# Son döyüş və əbədiyyət

*Payızın son ayının son günləri göz küsdürür. Könülə xoş gəlməyən ayamdı - sulu qar yağır, çiskindi, duman gah xırda dərələri doldurur, gah da çəkilir. Torpağa qar dənəsi düşmür, düşürsə görünmür. Bir qədər aralıda kol-kosun "əlləri-qolları" ağarışdanıb. Görənə elə gəlir ki, kol-kosu qar basıb. Qar deyil, görünüşündən qırova bənzəyir...*



Qırovun qara bu bənzəyişini 1993-cü ilin dekabrın ortalarında Zəligöldə görmüşdüm. Onda da belə bir ayamıydı, onda da sulu qar yağırdı, onda da bir qədər aralıda qalan meşə zolağında ağaclar bu görkəmdəydi. Hərbi hissənin zabiti Sahib Aslanov Murovdağa sarı baxıb sezilməsi çətin olmayan bir qəhərlə demişdi:

- Görəsən, atasının kölgəsinə sığınanlar yaşıdlarının bu alaçalpay ayamda döyüş növbətçiliyi apardığını bilirmi? Əlbəttə, bilir. Nə düşünür görəsən?

- Onlar say artıranlardı, qardaş. Onları bu oğullarla, bu igidlərlə müqayisə etmək günahdı. Müqayisəni şəhidlərin ruhu da bəyənməz, - demişdim. Dolaşan baxışlarımız Murovdağın o üzünə meyillənmişdi...

Üç il əvvəl bu vaxtlar ayamın necəliyini xatırlaya bilmirəm. Onu bilirəm ki, üç il əvvəl noyabrın 24-də komandiri hərbi hissənin nümunəvi əsgərlərindən biri olan Çingiz Qurbanovu ad günü münasibətilə təbrik etmişdi. Az sonra əsgər yoldaşları onu bayraq əvəzi göyə dikəltmişdilər; hamısı Çingizin xətrini çox istəyirdi. Bu istək əsgər dostluğunun başlanğıcıydı...



Üç il əvvəl dekabrın 26-da ayam belə olmayıb. Təbiət qarıyla, yağışıyla, çən-çisəyiylə dikələn qəhrəmanlığı yolundan eləməyib, onun ayaqlarına dolaşmayıb, onu ləngitməyib. Həmin gün çən-çisək olsaydı, bu dönməz qəhrəmanlıq səhərisi gün, o birisi gün tarixləşərdi; həmin gün bu qəhrəmanlığı təbiətin xoş ayamı uğurlayıb...

Çən-çisəkdi, narın çisəyə kimsə ovuc açmır...

"N" hərbi hissəsində qürura qarışan kövrəklik hiss olunur. Addımları yeniləyən əsgərlərin baxışlarında qədərsiz ehtiram görünür. Görünür və doğmalıqla görənlərin düşüncələrinə sarılır. O baxışlar ehtiramdı; bir əsgər ürəyindən şəhid ömürlərə mənəvi-ruhi yoldu. Bu yol görənlərin də ürəyindən keçir; bu yolun başlanğıcı əsgər ürəyidi, sonu - əbədiyyət.

Belə dönməz ehtiram görənləri həmişə düşündürüb; bu ehtiramı zamanında bu hərbi hissədə xidmət etmiş üç Milli Qəhrəmanın döyüş yolunu davam etdirməyə içilən and bilirəm. Bu qəhrəmanların 3-ü də 22 yaşında şəhid olub. Bu rəqəm ürəyimi titrədir. 22 rəqəmi təsadüfdümü? Belə də təsadüf olarmı? Mübariz İbrahimov da 22 yaşında şəhid olmuşdu. Bu qəhrəmanlar həmişə 22 yaşında olacaq, tarix onları əbədiyyən bu yaşda yaşadacaq, onları indi özümüz bu yaşda yaşadacağıq, sonralar ruhumuz. Bu, Vətənin müqəddəsliyinin qüdrətidi; şəhidlik Vətənlə bağlıdı, şəhidlərin yaşı şəhidlik anında tarixləşir, bundan sonrakı illər onun qəhrəmanlığının yaşı olur. Bu gün qəhrəmanlığının 3 yaşının tamam olmasına 36 gün qalmış Çingiz Qurbanovun anım günüdü; qəhrəmanlar həmişə anılır, doğum günlərində tədbir biçimində...

"N" hərbi hissəsində Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun anım günü qeyd edilir; Çingiz bu hərbi hissədə xidmət edib. Yox, günah etdim, hər gün səhər düzülüşündə, axşam düzülüşündə digər əsgərlərin ad-soyadıyla yanaşı, Azərbaycanın Milli Qəhrəmanı əsgər Çingiz Qurbanovun da ad-soyadı səslənirsə, o, xidmətdədi. Müdafiə nazirinin əmri ilə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun ad-soyadı hərbi hissənin adlı siyahısına əbədi yazılıb.

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsinə keçirilən anım günü mənəvi borcödəmədi.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi "Vətən uğrunda" səyyar-təşviqat qrupunun üzvləri Leyla Həsənova, Turac Yusubova, Əli Məmmədov, hərbi hissənin əsgər və zabitləri hərbi hissənin həyətində qəhrəmanların barelyefləri önünə tər güllər qoyurlar. Bu, ehtiramın təzahürüdü.

O anlarda təbiətin şəhid qəhrəmanların ruhuna sayğısı ürəyimizi telləndirir - çisək bir qədər ara verir, çən-çisək həmin müddətdə dağılır...

Polkovnik-leytenant Rüstəm Məmmədovun dedikləri həmişə yadda qalacaq:

- Əsgər Çingiz Qurbanov hərbi xidmətdə olanda komandirləri onun haqqında işıqlı fikirləri deyirdilər - nümunəvi əsgərdi, vətənsevərdi, cəsarətlidi. Onun xətrini əsgər yoldaşları da çox istəyirdi. Asudə vaxtlarda tarixi qəhrəmanlarımız haqqında danışmağı da, dinləməyi də çox sevərmiş. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov haqqında danışılanları daha həssaslıqla dinləyərmiş. Həmin vaxtlarda bunu Azərbaycan əsgərinin Azərbaycan əsgərinə qədərsiz ehtiramı bilib hamı... Qəhrəmanlıq Vətən naminə göstərilən fədakarlıqdır. Çingiz Qurbanovun da qəhrəmanlığı tarixləşdi. 30 gündən sonra o tarixin üç ili olacaq...

Anım günündə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanova həsr edilmiş "Çin olmuş yuxu" sənədli filminin nümayişindən əvvəl "Vətən uğrunda" səyyar-təşviqat qrupunun üzvü Turac Yusubova qəhrəmanın ömür yolundan söz açır, tarix yaradan, tarixə dönən döyüşündən danışaraq fikrini əsgərlərə xitabən hamısını duyğulandıran bir məqamla tamamlayır:

- Mübarizlərin döyüş yolunu Çingizlər davam etdirdi, Çingizlərin döyüş yolunu siz davam etdirəcəksiniz. Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan siz azad edəcəksiniz.

Əsgərlər sənədli filmi Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun özüylə kəlmələşirmişlər kimi izləyirlər. Qəhrəmanın xidmət yoldaşlarını dinlədikcə hamısının baxışları tündləşir, hamısının barmaqları yumruqlaşır. Mənə elə gəlir ki, indi, elə bu an buradan döyüşə getməyə nəinki hazırdırlar, bəlkə də bu döyüşü arzulayırlar...

Əsgər Əhməd Kazımzadə "Çin olmuş yuxu"ya baxışdan sonra deyir:

- Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov bizim sıramızdadı, bizdən sonra xidmət edəcək əsgərlərin sırasında olacaq, onlar tərxis edildikdən sonra da xidmətdə olacaq. Hər düzülüşdə ad-soyadı səslənir: Azərbaycanın Milli Qəhrəmanı əsgər Çingiz Qurbanov. Onda "Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla şəhid olub", - deyilir. Hərbi xidmət yoldaşımız əsgər Çingiz Qurbanovun hərbi xidməti yaşayan, həmişə yaşayacaq hərbi xidmətdi, ömrü həmişə yaşayacaq ömürdü...

Xatırlayıram ki, Texniki Universitetdə "Çin olmuş yuxu" sənədli filminin təqdimatında tələbələrdən biri demişdi ki, biz də yuxarı kursda oxuyan tələbələri tanıyırdıq. Çingizlə də salam əleykimiz vardı. Heç kimin ağlına da gəlməzdi ki, bu münasibətcil tələbə hamımızdan, minlərlə yaşıdından fərqlənəcək, hamı görəcək ki, Çingiz Vətəni onların sevdiyindən daha çox sevirmiş...

Əsgər Elman Qafarov deyir ki, orta məktəbdə oxuyanda Çingiz haqqında deyilənləri mən də maraqla dinləyirdim. "Ədəbiyyat müəllimimiz Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovla Çingiz Qurbanovun qəhrəmanlığının mahiyyəti arasında yaxınlığı, yəni, hər ikisinin düşmənlə tək döyüşünü ruhla əlaqələndirirdi. Deyirdi ki, hər iki qəhrəman bu ruhun qələbəsini tezləşdirmək, Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu yüksəltmək üçün döyüşüb, sonda şəhid olacağını bilərək döyüşüb. Müəllimimizin dediklərini qürurla dinləyirdik. Onda ağlıma da gəlməzdi ki, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xidmət etdiyi hərbi hissədə xidmət edəcəm. Bu qürur hər birimizin məsuliyyətini də yüksəldir. Qəhrəmanı sıramızda bilib xidmət edirik..."



Müdafiə nazirinin əmri ilə xidmət etdiyi mövqeyə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adı verilib. Anım tədbiri orda davam edəcək.

Tovuz rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə Ağbulaq kəndinin mərkəzi küçəsinə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adı verilib; Çingiz Qurbanov küçəsi bizi Çingiz Qurbanov adına posta aparır. Yolumuza döşənən çən-çisəyi çığnayıb gedirik...

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun barelyefinin açılışında Salman kişinin dediklərini xatırlayıram: "Mənim oğlum idin, oğul, indi Vətənin oğlusan. Bir qardaşın vardı, indi minlərlə qardaşın var...". Xatırladığımı xatırladıram. Duyğusal anlar yaşanılır.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin "Vətən uğrunda" səyyar-təşviqat qrupunun əməkdaşı Turac Yusubova əsgərlərə xitabən deyir ki, bu yüksəklik hər birinizi müqəddəsliyə bir qədər də yaxınlaşdırıb. "Hər dəfə döyüş növbətçiliyinə gedəndə sizə elə gəlir ki, Çingizin ruhu da sizin yanınızdadı, tapşırılan ərazini qəhrəmanın ruhuyla birlikdə qoruyacaqsınız. Bu dərk də vətənpərvərlikdi. Siz yüksək döyüş və mənəvi-psixoloji hazırlığa maliksiniz. Siz Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaqsınız..."

Təşviqat dəstəsinin üzvü Leyla Həsənova deyir ki, qəhrəmanlıq şəraitlə bağlı olsa da, buna ruhuyla hazır olmayanlar heç zaman qəhrəman ola bilməz. Çingiz Qurbanov Azərbaycan Texniki Universitetini bitirəndə müəllimləri ona təhsilini davam etdirməyi tövsiyə ediblər. Çingiz razı olmayıb, "Hərbi xidmətdən sonra oxuyaram. Ruhum məni hərbi xidmətə çəkir", - deyib. Onu hərbi xidmətə çəkən ruh beş aydan sonra döyüşə aparıb. Qəhrəmanlıq döyüşünə, şəhidlik döyüşünə...

Əsgər Əyyub Əliyev deyir ki, döyüş növbətçiliyinə getməzdən əvvəl Çingizin obeliski önündə xəyalən ruhuyla danışırıq: sənin döyüş yolunu davam etdirəcəyik! Döyüş növbətçiliyinə gedəndə elə bilirik ki, bizi Çingizin baxışları uğurlayır.

"Vətən uğrunda" səyyar-təşviqat qrupunun üzvləri, zabitlər, əsgərlər Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun barelyefi önünə tər çiçəklər düzürlər. Ehtiram çiçəkləridi bu.

Bir neçə saat əvvəl müxtəlif vaxtlarda bu hərbi hissədə xidmət etmiş üç Milli Qəhrəmanın obeliski önünə tər güllər düzüləndə çisək bir qədər ara vermişdi. Çən-çisək həmin anlarda çəkilmişdi. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov adına post xeyli yüksəklikdədi. Bu yüksəklikdə də güllər düzüləndə çisək səngiyir. Hərbi hissədə də, burada da güllər düzüləndə çisəyin səngiməsini rəmz bilirəm: uca ruhlara təbiətin də ehtiramı var...

...Qəhrəmanları həmişə xatırlayırıq...

Anım günlərində qəhrəmanları tədbir formatında xatırlayırıq...

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun anım günüydü...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.

**Suallar:**

**1. Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir.**

**2. Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.**

*Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir*

Dünyanın siyasi səhnəsində dövlətlərin uzunömürlü olması, ilk növbədə, onun ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməyi bacaran və möhkəm təməllər üzərində qurulan siyasi ideologiyasının olmasından asılıdır. Hələ min illər əvvəl Azərbaycan amili bu ərazidə yaşayan bütün xalqlar üçün birləşdirici bir məfhuma çevrilmişdir. XVI əsrdə böyük hökmdar və qüdrətli dövlət xadimi Şah İsmayıl Xətai tərəfindən Azərbaycan türkcəsinin dövlət dili səviyyəsinə qaldırılması burada yaşayan xalqların Azərbaycan ətrafında daha sıx birləşməsində önəmli faktora çevrildi.

Tarixi dönəmlərdə bu ideyanın inkişaf etdirilməsinə zərurət getdikcə daha da artdı. Bunun ən tarixi nümunəsi XX əsrin əvvəllərində gerçəkləşdirildi. Belə ki, 1918-ci ildə qurulan və Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası daha da inkişaf etdirildi. Təsadüfi deyil ki, azərbaycançılıq ideologiyası həm də birləşdirici bir məfhum hesab olunur. Bu da ondan irəli gəlir ki, azərbaycançılıq ideyası ətrafında, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkədəki bütün insanlar birləşib. Azərbaycanda yaşayan bütün xalqlar azərbaycançılıq ideyasını birləşdirici, vəhdət yaradıcı bir ideya kimi qəbul edirlər. Azərbaycançılıq ideyasının fundamental əsaslarından birini də məhz bu faktor təşkil edir. Bu baxımdan azərbaycançılıq ideyası, demək olar ki, əhalinin bütün spektrini əhatə edir.

Əslində, azərbaycançılıq ideologiyasının çox qədim tarixi kökləri vardır. Tarixin qədim dövrlərindən başlamış müasir günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. XX əsrin 80-ci illərinin sonlarında Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini taleyüklü bir məsələ kimi ortaya çıxardı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyev qısa müddətdə tarixiliklə müasirliyin tam vəhdətinə nail oldu. O, bu müstəvidə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı.

Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən, ilk növbədə, tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsidir.

Ümummilli lider Heydər Əliyev öz çıxışlarında bir vacib məqamı hər zaman diqqətə çatdırıb ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Ulu Öndər xaricdə yaşayan azərbaycanlıların dağınıq halda yaşamaması, onların diaspor fəaliyyəti göstərməsi üçün milli həmrəyliyin vacib olduğunu bildirirdi. O, həm də yaxşı bilirdi ki, milli həmrəyliyin möhkəmlənməsi üçün azərbaycançılıq ideologiyası zəruridir. Məhz bu ideologiyanın təbliği nəticəsində Azərbaycanı hansı səbəbdən tərk etmələrindən asılı olmayaraq xaricdə yaşayan soydaşlarımız arasında milli həmrəylik yarandı və onlar ümummilli maraqlar naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Bunun nəticəsində də soydaşlarımız arasında azərbaycançılıq ideologiyası milli həmrəyliyin konsepsiyasına çevrildi. Ümummilli lider Heydər Əliyev xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə - oradakı azərbaycanlı icmasının böyük və ya kiçikliyindən asılı olmayaraq - görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz Ulu Öndərin həmin görüş və çıxışlarda söylədiyi fikirlər, müddəalar təşkil etmişdir. Bu baxımdan Heydər Əliyevin 2001-ci ilin noyabrında Bakıda Dünya azərbaycanlılarının I qurultayında bəyan etdiyi tezislər, əslində, azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi idi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasında tarixiliklə müasirliyin nəzəri vəhdəti əsas yer tutur. Azərbaycançılığın ümummilli ideologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı. Bu ideologiya Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik əlamətlər əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər olmuşdur.

*Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi*

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilib. Ona görə Azərbaycan vətəndaşı sayılan hər kəs azərbaycançılıq ideyası ətrafında birləşib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası bu gün də mövcuddur. Bu ideya ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin fəlsəfi, siyasi mənası olduqca dərindir. Azərbaycançılıq milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Ümummilli Liderin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib.

Ulu öndər Heydər Əliyevin şah əsəri müasir müstəqil Azərbaycan dövlətidir. Müasir müstəqil Azərbaycan dövlətinin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir.

Hələ sovet dövründə respublika rəhbəri işləyərkən Heydər Əliyevin mənəviyyat, təhsil, mədəniyyət, əxlaq, milli adət-ənənələrin qorunması və inkişafı sahəsində gördüyü işlər müstəqil dövlətimizin yaradılması ilə nəticələndi. Azərbaycançılıq ideologiyası da məhz buradan qaynaqlanır. Bu ideologiya ölkəmizdə yaşayan xalqları bir amal uğrunda birləşdirir - hamımızın Vətəni Azərbaycandır və biz müstəqil dövlətimizi qoruyub inkişaf etdirməliyik. Hələ 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət dili Azərbaycan dili kimi təsdiq olundu. Eyni zamanda, o dövrdə iqtisadiyyatı, sənayeni inkişaf etdirməklə, bu sahədə güclü baza yaratmaqla, bütün sahələr üzrə peşəkar milli kadrlar yetişdirməklə ulu öndər Heydər Əliyev müstəqilliyin əsasını qoydu.

Ulu Öndər yorulmadan Azərbaycanın hər bir guşəsinə səfər edir, inkişafla maraqlanır, insanların həyat tərzi ilə tanış olurdu. Bununla da o, Azərbaycan insanını daha yaxından tanıyaraq, onların ənənələrini, mənəvi dəyərlərini və digər milli keyfiyyətlərini ümumiləşdirərək bu ideologiyanın əsasını qoydu. Təbii ki, bunların hamısı Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdı.

Qüdrətli şəxsiyyət Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı. Bu baxımdan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanı və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il tarixli Fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malik sənədlər idi. Bu tarixi sənədlər artıq yeni əsrin və üçüncü minilliyin əvvəllərində ana dili uğrunda mübarizənin dövlət səviyyəsində milli müstəqillik uğrunda mübarizənin - azərbaycançılığın tərkib hissəsi kimi əks etdirən dövlət proqramları - böyük strategiyanın təməl faktları idi.

Ulu öndər Heydər Əliyevin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən fundamental bir fəaliyyət proqramıdır. Bu çoxcəhətli, zəngin fəaliyyət proqramının ən mühüm qollarından birini, heç şübhəsiz, ordu quruculuğu təşkil edir. Bu istiqamətdə Heydər Əliyev fəaliyyətinin qlobal miqyası Azərbaycanın bugünkü reallıqları ilə yanaşı, həm də keçmişinin və gələcəyinin prizmasından əzəmətli görünür. Belə ki, hələ sovet hakimiyyəti illərində respublikamıza rəhbərlik edən Ulu Öndərimizin ordu quruculuğu, xüsusilə də hərbi təhsil sisteminin təməlini qoymaq istiqamətində həyata keçirdiyi tədbirlər bu gün öz tarixi təsdiqini tapmaqdadır. O vaxtlar Heydər Əliyevin təşəbbüsü və təkidi ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin yaradılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlı gənclərin sayının artırılması, onların qəbulunda konkret güzəştlərin tətbiqi respublikamızın gələcəyinə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi.

Müstəqillik illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyət kəsb etdi. Ötən zaman göstərdi ki, müstəqillik yolumuz ümummilli lider Heydər Əliyevin parlaq zəkasının, onun Azərbaycan torpağına, insanına olan sevgisinin təzahürü kimi meydana çıxdı. Azərbaycan xalqı, ictimaiyyət nümayəndələri çox haqlı olaraq bu illər ərzində ölkədə bütün sahələrdə uğurlara aparan yolun parlaq bir yol olduğunu qeyd edir və bu yol Heydər Əliyev yolu adlandırılır. Bu gün ölkəmiz Ümummilli Liderin ideyaları əsasında inkişaf edir. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə inkişafın, sabitliyin və həmrəyliyin təmin olunması bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Tibb xidməti

# Yeniliklər hərbi tibb sahəsinin inkişafına uğur qazandırır



*Cəmiyyətdə insanların sağlam və normal yaşayışının, həyat tərzinin təmin edilməsi ölkənin səhiyyə sahəsinin hansı səviyyədə olmasından birbaşa asılıdır. Dünya tibb elmində baş verən son yeniliklər ölkəmizin də səhiyyə sisteminin inkişafını irəli aparır, daha da müasirləşməsinə stimul olur. Son yeniliklər səhiyyəmizdə geniş tətbiq olunur və bu proses uğurla həyata keçirilir. Bu gün respublikamızın bütün tibb müəssisələrində müxtəlif profilli, ən son texnoloji tələblərə cavab verən avadanlıqlarla təmin edilmiş palatalar, kabinetlər, bölmələr, şöbələr, mərkəzlər fəaliyyət göstərir.*

Ölkəmizin səhiyyəsinin dünya standartlarına uyğun qurulması hərbi tibb sahəsinin də inkişafında mühüm rol oynayır. Müharibə şəraitində olan Azərbaycan hərbi tibb elmində dünyəvi yeniliklərə nail olur. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının maddi-texniki təminatı dünyanın ən yeni tibbi avadanlıqları, texnoloji sistemləri və qurğuları ilə təchiz edilir, hərbi həkim kadrlarının peşəkarlığının artırılması istiqamətində mühüm işlər görülür. Azərbaycanın hərbi tibb sahəsində yüksək peşəkarlığı ilə fərqlənən savadlı, müasir tibb elminin incəliklərinə yiyələnən hərbi həkim kontingenti - zabitlər xidmət edirlər.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalın endoskopiya bölməsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Vüsal Musazadə daim yenilik axtarışında olan, peşəkarlıq səviyyəsini artıran, öz üzərində ciddi çalışan vətənpərvər bir zabit kimi tanınır.

Tibb xidməti polkovnik-leytenantı Vüsal Musazadə hərbi həkim peşəsini qəlbinin səsiylə seçib. Seçib ki, o da Vətənimizin müdafiəsinə hazır olan Azərbaycan Ordusunun şəxsi heyətinin sağlamlığının keşiyində dayansın. Həkim olmaqla bərabər, həm də hərbçi olmaq istəyib.

O, 1981-ci il avqustun 1-də Sumqayıt şəhərində əslən Qubadlı rayon Fərcan kəndindən olan Qüdrət müəllimin ailəsində anadan olub. Oğula Qüdrət müəllimlə Gülayə xanım Vüsal adını verdilər. Vüsal Vətənə, elinə, obasına bağlı övlad kimi böyüyüb. Yay tətillərində Qubadlının Fərcan kəndinə gedərdi. O günləri ən əziz xatirə kimi yaşadır: "Qubadlı işğal olunanda 7-ci sinifdə oxuyurdum. Həmişə olduğu kimi, yay tətilimi ata-babamın, dayımın Fərcan kəndindəki evlərində keçirirdim. Fərcan düşmənlə sərhəddə yerləşir. Ağır müharibə gedirdi. Qubadlı işğal olunanda mən orada idim... Valideynlərimlə, qohum-əqrəbamla o çətin günləri birlikdə yaşadıq."

Vüsal həkim ilk hərbi xidmətə təmas xəttinə çox yaxın "N" hərbi hissəsində hərbi həkim kimi başlayıb. Zabit və əsgərlərimizin sağlamlığının keşiyində dayanıb. Yeni-yeni axtarışlarla təcrübəsini artırır, tibbi ədəbiyyatları mütaliə etməklə, nəzəri biliklərini daim təkmilləşdirməkdə davam edir.

Tibb xidməti polkovnik-leytenantı Vüsal Musazadənin xidmət yoluna nəzər salaq:

1998-2002-ci illərdə Azərbaycan Tibb Universitetinin müalicə-işi fakültəsində təhsil alıb. 2002-2004-cü illərdə Hərbi Tibb fakültəsinin ümumqoşun üzrə həkim ixtisasına yiyələnib. 2004-2006-cı illərdə cəbhə xəttində "N" hərbi hissəsinin tibb məntəqəsinin rəisi olub. 2006-2007-ci illərdə Hərbi Tibb fakültəsində terapiya ixtisası üzrə internatura pilləsini əla qiymətlərlə başa vurub. 2007-2008-ci illərdə cəbhə xəttində yerləşən hərbi birləşmənin səyyar tibb qrupunun terapiya bölməsinin rəisi vəzifəsini icra edib. 2008-2012-ci illərdə hərbi hospitallardan birində xidmətini davam etdirib. 2012-2015-ci illərdə Silahlı Qüvvələrin Baş Klinik Hospitalında xidmət edib. 2015-2017-ci illərdə isə Gülhanə Tibb Akademiyasında ixtisasartırma kursunu (Qastreontrologiya üzrə) uğurla başa vurub, 2017-ci ildən hospitalın Diaqnostika şöbəsinin endoskopiya bölməsinə rəhbərlik edir. 2018-ci ilin noyabrından 2019-cu ilin noyabrınadək Türkiyə Respublikasında Ankara Sağlıq Bilimləri Universitetinin Gülhanə tibb fakültəsində ERXPQ - endoskopik retroqrad xolanjio pankreotoqrafiya üzrə ixtisasartırma kursunu bitirib.

Keçdiyi son ixtisasartırma kursunun ölkə miqyasında əhəmiyyətindən danışan tibb xidməti polkovnik-leytenantı Vüsal Musazadə bildirdi ki, Azərbaycanda tibb elmində bu sahədə yeniliklər mövcud olsa da, daha müasir diaqnostik metodların tətbiqinə və inkişafına ehtiyac duyulur. "Ölkəmizdə, demək olar ki, 5-6 tibb mərkəzində ERXPQ əməliyyatı keçirilir. Bizim hospitalda ilk dəfədir ki, bu metod vasitəsilə əməliyyat keçiriləcək. Hər xəstənin müayinə və müalicəsində doğru, düzgün təyinatın verilməsi və diaqnoz çox vacibdir. Bizim bölməmiz diaqnostika şöbəsinin endoskopiya bölməsi adlanır. Ölkəmizin



tibb elminin inkişafına böyük nailiyyətlər qazandıran endoskopik müayinə üsulu qida borusu, mədə, on iki barmaq bağırsaq xəstəliklərinin müalicəsində uğurla həyata keçirilir. Mədə qanaxmalarının, mədə poliplərinin müalicəsində birbaşa müdaxiləsi ilə öz müsbət nəticələrini verir. Bədxassəli prosesi erkən dövrdə aşkar etməyə imkan yaradır. Erkən diaqnostika isə uğurlu müalicə deməkdir."

Vüsal həkim dedi ki, dünya tibb sahəsində istifadəsi geniş yayılmış, ölkəmizdə isə müasir müalicə metodu kimi tanınan kolonoskopiya müayinəsinin tətbiqi yoğun və incə bağırsağın bir hissəsinin bu alətlə diaqnostikasının qoyulması üsuludur. "Yoğun bağırsağın poliplərində və şiş xəstəliklərinin erkən diaqnostikasında, eyni zamanda, iltihabi bağırsaq xəstəliklərinin də erkən diaqnostikasında tətbiq edilir."

Gələcəkdə müasir müalicə üsullarının və diaqnostik metodların tətbiqinin davam etdiriləcəyini deyən bölmə rəisi onu da bildirdi ki, öd yollarının və mədəaltı vəzidə baş verən dəyişikliklərin endoskopik yolla aradan qaldırılmasına çalışacağıq. "Öd yollarının daş xəstəliklərinin, mədəaltı vəzi axarının darlıqlarında endoskopik yolla (ERXPQ) müdaxilə edərək, müayinəsini keçirəcəyik."

Tibb xidməti polkovnik-leytenantı Vüsal Musazadə Azərbaycan Ordusunun şəxsi heyətinin sağlamlığının keşiyində dayanmaqdan qürur hissi keçirir.

"Müharibə tezliklə qurtarsın, torpaqlarımız azad edilsin. İşğaldan azad edilmiş başqa kəndlərin sakinləri kimi, Fərcan kəndinin əhalisi də öz yurduna qayıtsın", - bu arzuyla yaşayır, xidmət edir Vüsal həkim...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda ağacəkmə aksiyası keçirilir

*Azərbaycan Respubikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın ekoloji vəziyyətin yaxşılaşdırılması və yeni yaşıllıq zonalarının salınması təşəbbüsünə Azərbaycan Ordusunun şəxsi heyəti də qoşulub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ağacəkmə aksiyası çərçivəsində birlik, birləşmə, hərbi hissələr, xüsusi təyinatlı hərbi təhsil müəssisələri, idarə və təşkilatlarda ümumi sayı 60 mindən çox müxtəlif növ ağac əkiləcək, təyin olunmuş ərazilərdə yeni yaşıllıq zolaqları salınacaq, abadlıq və yaşıllaşdırma işləri aparılacaq, ağacların dibi yumşaldılacaq və yaşıllıqlara aqrotexniki qulluq göstəriləcək.

Aksiyanın keçirilməsində məqsəd ağac əkməklə təbiətin qorunmasına töhfə vermək, ekoloji tarazlığın bərpasına, ətraf mühitin mühafizəsinə kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək və ictimaiyyətin diqqətini yaşıllaşdırma işinin vacibliyinə yönəltməkdir.

Hazırda Azərbaycan Ordusunda ağacəkmə aksiyası davam edir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələriatəşkəs rejimini pozub

***28 noyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Abdinli, Şirvanlı, Mərzili, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***29 noyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Könlüm şeir istəyir

## Qəhrəmanlar şeirdə də yaşadılır

*Cəmiyyətdə və dünyada baş verən müxtəlif hadisələr, xarakterlər, təbiət hadisələri və gözəlliklər həmişə ədəbiyyatın, bu sıradan poeziyanın mövzusu olub. Böyük Vətən müharibəsi başlayanda Səməd Vurğun yazmışdı:*

*Bilsin Ana Torpaq, eşitsin Vətən,*
*Müsəlləh əsgərəm mən də bu gündən!*

*Yəni, Səməd Vurğunun timsalında yazıçılar, şairlər, bu şeirin timsalında yazılanlar müsəlləhləmişdi... Ermənistanın Azərbaycandan ərazi iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu. Doğrudur, şairlər, yazıçılar bu müharibəyə, qəhrəmanlara əsərlər yazdılar (və yazırlar!), lakin ədəbiyyat, bu sıradan poeziya müsəlləh əsgər ola bilmədi, indi də müsəlləh əsgər deyil. Qəhrəmanlığa, qəhrəmanlara yazılan əsərlər - şeirlər, poemalar kəmiyyət baxımından azdır. Yazılan əsərlər gənc nəslin vətənpərvərlik duyğularının formalaşmasında, ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində əhəmiyyətlidir. Azərbaycanın Milli qəhrəmanları Albert Aqarunova, Mübariz İbrahimova, Çingiz Qurbanova, eləcə də digər qəhrəmanlara həsr olunan hər əsər ruhun ruhla pıçıltısı kimi oxunur, dərk edilir...*

**"Azərbaycan Ordusu"**

*Nəriman Həsənzadə*

### Əbədiyyət nəğməsi

Mən indi bildim ki, bir hünər ölmür,
O şahlıq quşunu mən alqışladım.
Hünəri göstərən o əsgər ölmür,
Sənin yaşıdındı, mənim yaşıdım.

O sürdü tankını Cıdır düzünə,
Qarabağ düzünün tən ortasıydı.
Qartal şığıyırdı şikar üstünə,
Bu uçuş - sonuncu bir qıyyasıydı!

Zirvədən-zirvəyə o bir can atdı,
duyduqca düşmənin min hiyləsini.
Tolerant ölkənin adından atdı,
İşğalçı ölkəyə - son gülləsini.

Vətəndə - Vətənsiz Şuşa qalası!
O, gözü yoldaydı, bu, özü yolda.
Deyin, qara geysin düşmən anası,
Ya meyiti qalıb, ya izi yolda.

Sənə, Azərbaycan, o ana dedi,
Səngərdə yazıldı varaq sinəsi.
Tufandan çıxanda, tufana getdi,
Özü - şəhid oldu, Vətən - töhfəsi!

Gedib Xiyabanda gül-çiçək əkdik,
Gözü aydın olsun doğan ananın.
Adını fərəhlə, qürurla çəkdik,
Bizim adımıza şöhrət olanın.

Qalxın, şəhidlərin xatirəsinə,
Gəlsin səcdəsinə dumanlı dağlar.
Baxın - Azərbaycan xəritəsinə, -
Vətən yadigardı, millət yadigar.

*Ramiz Qusarçaylı*

### Çingiz

Bir şəhid ruhu da ucaldı göylər,
Bir şəhid boyu da böyüdü torpaq.
İndi də baş-başa verib mələklər,
Çingizin adını pıçıldayacaq…

Dolub bulud-bulud süzür bir ana,
Bir ata səsində nəmli sükut var.
Öyünə-öyünə basır bağrına
Qəhrəman oğlunu qəhrəman Qusar…

Şığıyır Şuşadan qisas küləyi,
Hayqırır Murovdan Şah dağınacan.
Dolanır Çingizin cəsur ürəyi
Vətənin son qarış torpağınacan…

Dağ-dağ silkələyib qara layları,
Qonur bayrağımın hər rənginə o.
Oyadıb daşlaşan daş harayları
Qarışır himnimin ahənginə o…

Döyüşlər məktəbə dolacaq indi,
Açıq dərs olacaq yenə Qarabağ.
Hər uşaq qəhrəman olacaq indi, -
Şəklinin altına Çingiz yazacaq…

Bir Eşq də göylərə uçdu beləcə,
Bir Eşq də üzüldü könül barından…
Ağ atlı oğlana dönüb hər gecə
Keçəcək bir qızın yuxularından…

Bu il gül açmağa tələsdi bahar,
Gül açdı Vətənin qışında Çingiz.
Burda hər igidin öz zirvəsi var,
Burda hər zirvənin başında Çingiz!

Bir şəhid ruhu da ucaldı göylər,
Bir şəhid boyu da böyüdü torpaq.
İndi də baş-başa verib mələklər
Çingizin adını pıçıldayacaq…

*Abdulla Qurbani*

### Gedirəm

Vətənim uğrunda can vermişəm mən,
Qana qan demişəm, qan vermişəm mən.
Başını sən dik tut, Vətən, ay Vətən,
Cənnət qapısını açıb gedirəm.

Çətindi Qarabağ, Xocalı dərdi,
Bağ saldıq, barını yağılar dərdi,
Cismim torpaqdadı, cismim yerdədi,
Ruhumla göylərə uçub gedirəm.

Təpələr adladım, odlardan keçdim,
Demə ki, dünyadan mən nakam köçdüm,
Ay ana, bu yolu könüllü seçdim,
Şəhadət şərbətin içib gedirəm.

Qışdan sonra yenə yaz gələcəkdir,
Çaylar haray salıb sellənəcəkdir,
Tarımla kamanım dillənəcəkdir,
Qulduru, cəlladı biçib gedirəm.

Dağlarda çən-duman yox olacaqdır,
Düşmən öz qanında boğulacaqdır,
Balan da yenidən doğulacaqdır,
Ağlama, qəlbələrə köçüb gedirəm.

Nərəmlə dağları oyadacağam,
Daşnak yuvasına od vuracağam,
Qələbə günündə qayıdacağam,
Gün kimi al şəfəq saçıb gedirəm.
Şəhadət şərbətin içib gedirəm!

*Şahin Musaoğlu*

### Vətən sağ olsun!

Gör neçə il yol gəldim
bir günlük möhlət üçün.
Üstümdə Haqq sayəsi,
haqqıma xidmət üçün.

Önüm-güllə yağışı
Arxam odum-ocağım.
O da Vətən torpağı
Bu da Vətən torpağım.

Biri arım-ismətim,
Biri varım-dövlətim,
Hər ikisi sərvətim
bir halal qismət üçün.

İndən belə bir kimsə
Yolumu kəsə bilməz!
Bu gecə mənim gecəm
Doğan hürriyyət üçün!

Vətən adlı cənnəti,
Torpaq adlı həsrəti,
Qurtaraq məmləkəti
Qurulan dövlət üçün!

*Rəşid Faxralı*

### İyirmi iki yaşın nağılı

Yadımızdan çıxan deyil
"Yeddi qardaşın nağılı".
Sərhəd boyu daş üstünə
Düzülən daşın nağılı.

Dəli rüzgar meh gətirər,
Ləçəklərə şeh gətirər,
Ya qövsi-qüzeh gətirər
Bir çağırışın nağılı...

Görən gizlədir göy nəyi,
Sovuşmur qəmin göynəyi...
Qışdı nağılın köynəyi,
Çiçəklər - qışın nağılı.

Tilsimə düşüb kilidi,
Açılmaz tilsim kimidi...
Unuda bilməz igidi,
Dünya - savaşın nağılı.

Əl uzat göydən üz yaşı,
Tər çiçəklərə düz yaşı...
Yağış göylərin göz yaşı,
Torpaq - yağışın nağılı.

Qaranlığı yıxan şimşək,
Qaranlıqdan axan şimşək,
Məqamında çaxan şimşək
Köntöy baxışın nağılı.

Bu səs ərənlik səsidi,
Ya tarixin nərəsidi?!
Şəbi-hicran gecəsidi
Qışın qaraşın nağılı.

Bu köz Tanrının közüdü,
Yanar ocağın özüdü...
Əsgərə qardaş sözüdü
22 yaşın nağılı.

Kim deyir sönür? - yaşayır.
Tarixə dönür, yaşayır
Bu ömrün, yaşın nağılı.
Ruhumuzda yaşayacaq,
Ruhumuzu yaşadacaq
22 yaşın nağılı...

# İdman

## Azərbaycanın güllə atıcıları Tbilisidə üç medal qazanıblar



Azərbaycanın güllə atıcıları Tbilisi açıq çempionatında böyüklərin yarışında mübarizə aparıblar.

Komandamızın üzvü Nigar Nəsirova 569 xalla çempionatın qalibi olub.

Hər ikisi 571 xal toplayan Ruslan Lunyov ikinci, paralimpiyaçı Kamran Zeynallı isə üçüncü yeri tutublar.

## Şahmatçılarımız Serbiyada uğurlu çıxışlarını davam etdirirlər



Serbiyada keçirilən beynəlxalq turnirdə Azərbaycan şahmatçıları daha bir turu qələbə ilə başa vurublar.

Dördüncü turda təmsilçilərimiz Nail Bəşirli monteneqrolu Dragisa Blagojevic, Abdulla Qədimbəyli isə serbiyalı Sasa Velickovici məğlub ediblər. Şahmatçılarımız maksimum xalla ikinci və üçüncü pillələrdə qərarlaşıblar.

İsveçrə sistemi üzrə keçirilən turnir 9 turdan ibarət olacaq.

## “Karate 1” Premyer Liqa turnirində ölkəmizi 13 idmançı və kata komandası təmsil edəcək




Böyüklərdən ibarət milli komandamız İspaniyanın paytaxtı Madriddə "Karate 1" Premyer Liqa turnirində iştirak edir.

Turnirdə ölkəmizi 13 idmançı və kata komandamız təmsil edir. Belə ki, kumite üzrə kişilərdən ibarət milli komandanın baş məşqçisi Bahəddin Kandaz və böyük məşqçilər Şahin Xudaverdiyev, Qurban Tağıyev və qadınlardan ibarət milli komandanın baş məşqçisi Denis Morozovun rəhbərliyi altında yarışda Firdovsi Fərzəliyev (60 kq), Rafiz Həsənov, Tural Ağalarzadə (hər ikisi 67 kq), Rafael Ağayev (75 kq), Pənah Abdullayev, Turqut Həsənov (hər ikisi 84 kq), Asiman Qurbanlı, Şahin Atamov (hər ikisi 84 kq-dan yuxarı), eləcə də Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq), Fəridə Abiyeva (61 kq), İrina Zaretska (68 kq) və Fəridə Əliyeva (68 kq-dan yuxarı) çıxış edirlər.

Roman Heydərov (fərdi), həmçinin Tural Balcanlı, İsmayıl Quliyev və Rövşən Əliyev (komanda) isə baş məşqçi Vahid Ayvazovun rəhbərliyi ilə kata yarışlarına qatılacaqlar. Dünya Karate Federasiyasının (WKF) ən nüfuzlu liqa yarışının cari mövsümdəki son mərhələsini idarə edən referilər arasında beynəlxalq hakimlər Cahangir Babayev və Vüqar Kərimov da yer alıblar.

## Rafael Ağayev “Grand Winners” mükafatına layiq görülə bilər



İspaniyanın paytaxtı Madriddə "Karate 1" Premyer Liqa turniri çərçivəsində ilin yekununa əsasən fərqlənən idmançılar "Grand Winners" mükafatlarına sahib olacaqlar.

2019-cu il mövsümünün nəticələrinə əsasən "Grand Winners" mükafatına namizədlər arasında Azərbaycanın tanınmış karateçiləri Rafael Ağayev (75 kq) və İrina Zaretska (68 kq) da var.

Mükafatın təqdimatı 2020-ci il yanvarın 24-26-da Parisdə, növbəti mövsümün ilk Premyer Liqa turnirində olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 953
Nüsxə 3950